**UOT 32**

# AZƏRBAYCANIN GƏLƏCƏYİNİ FORMALAŞDIRAN SİYASİ STRATEGİYA: İLHAM ƏLİYEV SİYASƏTİ

**Günel Məlikli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmlər doktoru hazırlığı üzrə dissertantı,
siyasi elmlər üzrə fəlsəfə doktoru
gunelmelikli@gmail.com
DOI:10.30546/ifs.2021.1(36).100

**Xülasə.** 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. İlham Əliyevin dövlət idarəçiliyi strategiyasında mənəvi həyat sahələri də ön sırada yer alıb. İlham Əliyevin Prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi. 2021-ci ildə də qarşıya qoyulan məqsədlərə cənab Prezident İlham Əliyevin gərgin əməyi nəticəsində uğurla nail olunacaq. Beləliklə, bu qısa icmalda Prezident İlham Əliyevin cəmiyyətin hər bir konkret fəaliyyət sahəsində gördüyü işin strateji yönümünün dövlətin ümumi inkişaf konsepsiyası ilə sıx əlaqəsini, sistemlilik zəminində həyata keçirilməsini göstərməyə çalışdıq.

**Məqsəd:** Aparılan tədqiqatın məqsədi mövzunun öyrənilməsi zamanı sistemli və kompleks yanaşmadan istifadə etməklə Azərbaycanın gələcəyini formalaşdıran siyasi strategiya təhlilini həyata keçirməkdir. Azərbaycan Respublikasında inzibati qurumlar üzərində sosial nəzarətin təşkilində siyasi təmsilçilik və liderlik tələbləri baxımından işlər həyata keçirilməkdədir.

**Metodologiya:** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi strategiya ilə bağlı həyata keçirdiyi tədbirlər tədqiqatın nəzəri-metodoloji əsaslarını təşkil edir

**Elmi yenilik:** Bu əsərin elmi yeniliyi Azərbaycanın siyasi elmi üçün aktual olan milli inkişaf sistemində Azərbaycanın gələcəyini formalaşdıran siyasi strategiyasının araşdırılmasına diqqətin artmasından ibarətdir. Nailiyyətlərin artması təsadüfi olmayıb müəyyən amillərlə bağlıdır.

**Açar sözlər:** siyasət, dövlət quruculuğu, seçkilər, idarəetmə

# ПОЛИТИЧЕСКАЯ СТРАТЕГИЯ, ФОРМИРУЮЩАЯ БУДУЩЕЕ АЗЕРБАЙ-ДЖАНА: ПОЛИТИКА ИЛЬХАМА АЛИЕВА

**Гюнель Маликли**

**Резюме.** В 2020 году под руководством президента, верховного главнокомандующего Ильхама Алиева Вооруженные силы Азербайджана быстро демонтировали армию, которую Армения создавала 30 лет при поддержке своих покровителей. В стратегии Ильхама Алиева по управлению государством сферы духовной жизни также находятся на переднем крае. Основная идея президентства Ильхама Алиева заключалась в создании прочной экономической базы. Поставленные на 2021 год цели будут успешно реализованы благодаря упорному труду Президента Ильхама Алиева. Таким образом, в этом кратком обзоре мы постарались показать, что стратегическое направление работы, проводимой Президентом Ильхамом Алиевым в каждой конкретной сфере общества, тесно связано с общей концепцией развития государства, реализуемой на системной основе.

Ключевые слова: политика, государственное строительство, выборы, управление

## POLITICAL STRATEGY SHAPING THE FUTURE OF AZERBAIJAN: THE POLICY OF ILHAM ALIYEV

**Gunel Malikli**

**Abstract.** In 2020, under the leadership of the President, Supreme Commander-in-Chief Ilham Aliyev, the armed forces of Azerbaijan quickly dismantled the army, which Armenia created for 30 years with the support of its patrons. Ilham Aliyev 's strategy for governing the state and the spheres of spiritual life are also in the forefront. The main idea of the presidency of Ilham Aliyev was to create a strong economic base. The goals set for 2021 will be successfully realized thanks to the hard work of President Ilham Aliyev. Thus, in this brief review, we tried to show that the strategic direction of the work carried out by President Ilham Aliyev in each specific sphere of society is closely linked with the general concept of the development of the state, the statehood.

Keywords: politics, state building, elections, governance

### Giriş / Introduction

Müasir Azərbaycan reallıqlarında siyasi reytinqə Respublika Prezidenti İlham Əliyev başçılıq edir. İlham Əliyevin prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi. Bu konsepsiya kütləvi şüurun və cəmiyyətin sosiomədəni bazisinin mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasına transformasiyasına imkan yaratmalıdır. [5,s.13]

2003, 2008, 2013 və 2018-ci illərin prezident seçkilərində xalqımız Heydər Əliyev kursunun davam etməsinə səs verdi. Bu mənada İlham Əliyevin siyasi kursuna Heydər Əliyev kursunun davamı kimi baxmaq lazımdır. Heydər Əliyev və İlham Əliyev dövlət quruculuğunun mahiyyətinə, onlar arasındakı əlaqəyə diqqət yetirsək görərik ki, Ümummilli Lider tərəfindən uzaqgörənliklə, mükəmməl şəkildə müəyyən edilmiş strategiya İlham Əliyev tərəfindən dəqiqliklə, xalqımızın və dövlətimizin mənafeyi nəzərə alınmaqla həyata keçirilir. Bununla yanaşı, İlham Əliyevin dövlət quruculuğu modeli özünəməxsus ştrixlərlə də diqqəti cəlb edir. [6]

Öz nəhəng inamlı addımlarıyla Azərbaycan siyasi səhnəsini titrədən İlham Əliyev faktoru Azərbaycanın sağlam qüvvələrini və rasional düşünən insanlarını sevindirdiyi qədər, müxalifəti də məyus edir. Və bu mövcudluq xalq arasında geniş nüfuza, Yeni Azərbaycan Partiyası kimi monolit siyasi gücə, yüksək intellektə, kifayət qədər sanballı iqtisadi və siyasi təcrübəyə, qüdrətli və böyük Heydər Əliyev siyasi məktəbinə, şəffaf, sınanmış və şərəfli genetik keyfiyyətlərə söykənir. Bu güc qarşısında duruş gətirmək, bu keyfiyyətlər və onların verdiyi üstünlüklər qarşısında aciz qalmamaq mümkün deyildir. [3, s.200]

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73% səsini qazanan İlham Əliyev ikinci dəfə 2013-cü ildə prezident seçilmişdir (84,54% səs çoxluğu ilə). Üçüncü dəfə, 2018-ci ilin aprel ayının 11-də İ.Əliyev yenə də Prezident vəzifəsinə seçildi (86,02 % səs toplayaraq). Yeni prezident Fransaya və Rusiyaya ilk rəsmi səfərlərini etdi. Bu uğurlu səfərlər təsdiqlədi ki, Prezident Heydər Əliyev tərəfindən qoyulan balanslaşdırılmış xarici siyasət kursu əzmlə davam etdirilir. [2,s.253]

İdarəçilikdə "müasir dünyanın qabaqcıl ölkələrinin təcrübəsi yeni bir fenomeni – "keyfiyyət inqilabı"nı aşkara çıxarmışdır. Xüsusilə də, "Yaponiya möcüzəsi" timsalında bu, geniş müzakirə olunur. "Keyfiyyət inqilabı" daimi, ardıcıl təkmilləşməyə, gələcəyə oriyentasiyanı, daha dəqiq deyilsə, "məqsədlərin daimiliyini" elmi prinsip kimi əsas hesab edir. Bu, yeni, uzunmüddətli perspektiv üçün hesablanmış strategiyadır. Bütün sahələrdə keyfiyyət dəyişikliklərinə, ölkədə və dünyada uğurların davamına xidmət edir".[4.s.19]

Məlumdur ki, Prezident İlham Əliyev Azərbaycanda "keyfiyyət inqilabını" daimi məqsəd kimi Gülüstan sarayındakı rəsmi ziyafətdə bəyan etdi: "Biz gələcəyə baxmalıyıq. Bizi gələcəkdə nələrin gözlədiyi bizdən asılıdır, Azərbaycan xalqından asılıdır. Biz seçimimizi etmişik. Azərbaycan artıq müasir ölkədir. Ancaq müasirləşmənin limiti, hüdudları yoxdur. Bu, əbədi bir prosesdir, sonsuz bir

prosesdir".[4,s.19]

1 oktyabr 2003-cü ildə Prezident Heydər Əliyevin Azərbaycan xalqına müraciətindən İ.Əliyevə verdiyi dəyər və qiyməti görmək olur: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".[1,s.250]

Beləliklə, sonradan həyat da bunu sübut etdi ki, "Heydər Əliyev siyasi kursunun alternativsizliyi qənaətini özü üçün tam yəqinləşdirmiş müdrik xalqımızın cənab İlham Əliyevi strateji islahatlar kursunun layiqli davamçısı görməsi, əslində, bir sıra reallıqlarla şərtlənmişdir. Heydər Əliyevin zəngin idarəçilik keyfiyyətlərini dərindən əxz etməsi, bu və ya digər problem ətrafında müzakirələrin fəal iştirakçısı kimi yetişməsi, çağdaş Qərb liderlərlərinə xas imici, ən başlıcası, təmiz keçmişi İlham Əliyev fenomeninin cəmiyyət üçün cəlbediciliyini artıran ən əsas amillərdəndir". [7,s.148-149].Akademik R.Mehdiyev Prezident İlham Əliyevin öz siyasətinin belə açıqlamasını xatırladır: "Mən tam əminəm ki, əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. O ölkələr ki onlar iqtisadi cəhətdən güclüdürlər, orada sahibkarlıq inkişaf edibdir və azad sahibkarlıq böyük uğurlar qazanıbdır, o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi xalqın maddi rifahının yaxşılaşması, demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir.

Tədqiqatçıların gəldiyi qənaət belədir ki, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin layiqli varisi, Azərbaycan Prezidenti İlham Əliyev hələ hakimiyyətə gəlməzdən xeyli öncə bəyan etmişdi ki, mənim siyasi kursum Heydər Əliyev strategiyasının tərkib hissəsi, onun davamıdır. Ulu öndərin siyasəti dəyişməz olaraq qalacaq və Azərbaycan xalqının gələcək təminatının, işıqlı, firavan həyatının qarantının əsas atributu kimi yaşadılacaq. "Heydər Əliyev siyasəti yaşamalıdır. Bu, zamanın tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmağa xidmət edəcəkdir". İlham Əliyev siyasi kursunu şərh edərkən ona da aydınlıq gətirdi ki, Heydər Əliyevin xarici siyasət kursu da dəyişməz olaraq qalacaqdır. "Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyadır".

Analitiklərin gəldiyi qənaətlərdən biri də ondan ibarətdir ki, "İlham Əliyev qısa bir vaxt ərzində çox çevik siyasət həyata keçirərək ölkədə liberal islahatlar aparmaqla yanaşı, demokratik təsisatları gücləndirdi. Qanunlar təkmilləşdirildi, qaydalar yeniləşdirildi, strukturlar beynəlxalq normalara uyğunlaşdırıldı. Daxili siyasət strategiyası ilə yanaşı, xarici siyasətin istiqamətləri müəyyənləşdirildi. Bütün istiqamətlərdə, istər Şərq, istər Qərb yörəsində, istərsə də uzaq Amerika qitəsi ilə olsun, bu siyasətin konturları tamamilə aydın və dəqiq idi. "Biz bütün ölkələrlə əməkdaşlığa açığıq, xarici siyasətimiz səmimidir, dürüstdür" çağırışı ilə dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının yüksək tribunasından dünya dövlətlərinə, aparıcı təşkilatlara, iri şirkətlərin rəhbərlərinə müraciət edərək, Azərbaycan hakimiyyətinin siyasi kursunu bəyan elədi".

Bundan başqa, analitiklərin hesab etdiyi kimi, "İlham Əliyevin Azərbaycan Ordusunun güclənməsinə istiqamətlənmiş siyasətinin uğurla həyata keçməsinin bir sıra xarakterik cəhətləri vardır. Bu xarakterik cəhətlərdən birincisi, heç şübhəsiz ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi dövlət siyasətinə sədaqət və həmin siyasətin yeni tarixi şəraitə uyğun olaraq yaradıcı şəkildə davam etdirilməsi idi. İlham Əliyev bütün fəaliyyəti boyu həm bəyan edir, həm də fəaliyyəti ilə nümayiş etdirirdi ki, Azərbaycanın inkişafında Heydər Əliyev siyasətinə sadiqdir və bu siyasətə alternativ yoxdur. Azərbaycanın ordu quruculuğunda da bu prinsip əsas tutulurdu. 2016-cı il noyabr ayının 12-də Azərbaycan

Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan ordusunun işğalından azad edilmiş Lələtəpə yüksəkliyində oldu, ön cəbhədə olan bölmələrin xidmət qayğıları ilə tanış oldu və müşahidə etdiklərindən razı qaldığını bəyan etdi.

Dəyişən dünya liderlik keyfiyyətlərinin də dinamikasını şərtləndirir. Ölkədəki real vəziyyət liderin müəyyən obrazını daha qabarıq təqdim edir. Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən, yüksək rifaha çatdıran liderləri olur. Cənab İlham Əliyev xalqımızın alternativsiz lideri, yeganə inam ünvanıdır, xilaskardır, mümkünsüzü mümkünə çevirən qəhrəmandır. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub işğalçı Ermənistan deyil, bütün dünya gördü. Rəşadətli Ordumuz Vətən torpaqlarından işğalçı vətənsizləri qovaraq Azərbaycanın ərazi bütövlüyünü, toxunulmazlığını təmin etdi. Qüdrətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm zəfər tarixi yazdı. Sonradan Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etdi. Bu Sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olundu. 2021-ci il mayın 12-si və 13-də isə Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə festival baş tutaraq, bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, o cümlədən Şuşadan olan tanınmış şəxslər dəvət olunmuşdur. Müxtəlif xalqların incəsənət nümayəndələrinin “Xarı bülbül" festivalında iştirakı bizdə böyük iftixar hissi yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etməsi, Vaqif Poeziya günləri və "Xarı bülbül" festivalını bərpa etməsi ölkənin mədəni həyatında əlamətdar hadisə kimi tarixə düşdü və Qarabağın tacı olan Şuşada yeni həyatın başlandığını sübut etdi. Bu bizim üçün böyük fəxrdir ki, möhtərəm Prezident və rəşadətli Ordumuzun sayəsində torpaqlarımız erməni daşnaklarından azad olundu. 2021-ci ildə də qarşıya qoyulan məqsədlərə cənab Prezident İlham Əliyevin gərgin əməyi nəticəsində uğurla nail olunacaq. [9]

**Nəticə / Conclusion**

İlham Əliyevin dövlətin idarəedilməsi strategiyasında mənəvi həyat sahələri də ön yerdə yerləşdirilmişdir. Beləliklə bu qısa icmalda Prezident İlham Əliyevin cəmiyyətin hər bir konkret fəaliyyət sahəsində gördüyü işin strateji yönümünün dövlətin ümumi inkişaf konsepsiyası ilə sıx əlaqəsini, sistemlilik zəminində həyata keçirilməsini göstərməyə çalışdıq.

**İstifadə olunmuş ədəbiyyat/References**


1. Andriyanov V., Mirələmov H. İlham Əliyev. M.: Molodaya Qvardiya, 2007
2. Azərbaycan Prezidenti. Bakı: “Azərbaycan” nəşriyyatı, 2004
3. Babaoğlu H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi(siyasi, ideoloji və diplomatik məsələlər). Bakı: “Elm”, 2007
4. Mehdiyev R. Azərbaycan -2003-2008: Zaman haqqında düşünərkən. Bakı: “Şərq-Qərb”, 2009
5. Mehdiyev R., Gələcəyin Strategiyasını Müəyyənləşdirərkən: Modernləşmə Xətti. Bakı, “Şərq-Qərb”, 2008
6. Rəcəbli H. “Şəxsiyyət zirvəsi”//Azərbaycan qəzeti, 13 iyul 2019-cu il
7. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun Heydər Əliyev mərhələsi. Bakı: “Elm və təhsil”, 2018
8. Yeni Siyasət: inkişafa doğru. I cild. Mehdiyev R. “Azərbaycan” qəzetinin “Azərbaycanın özü qədər əbədi” silsiləsindən IV kitabı, “Oskar” NPM mətbəəsi, 2008
9. http://philosophy.edu.az/index.php?newsid=1141


**Göndərilib: 12.04.21** **Qəbul edilib: 02.06.21**